**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ**

# QƏRAR

№ 1/2

Bakı şəhəri 18 yanvar 2017-ci il

"AMEA-nın professoru" elmi
adının təsis edilməsi haqqında

Alimlərin elmi, elmi-təşkilati və elmi-pedaqoji fəaliyyətlərinin layiqincə qiymətləndirilməsi, onların ağır və şərəfli əməyinin lazımi səviyyədə stimullaşdırılması son illər Azərbaycanda elmi fəaliyyət sahəsində həyata keçirilən çoxyönlü islahatların mühüm istiqamətlərindən birini təşkil edir. Bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilmiş, yeni fəxri adlar, diplomlar və mükafatlar təsis edilmişdir. Beynəlxalq akademik elmi təcrübəyə əsasən, elmi və elmi-təşkilati fəaliyyət sahəsində yüksək elmi nailiyyətlər əldə etmiş alimlərin əməyinin lazımi səviyyədə stimullaşdırılması üzrə tədbirlərdən biri də akademik professor elmi adının təsis edilməsidir. Qeyd olunanları nəzərə alaraq, həmçinin beynəlxalq və milli səviyyədə yüksək elmi nailiyyətlər əldə etmiş, uzun illər ərzində AMEA-nın əsas funksiya və vəzifələrinin həyata keçirilməsində xüsusi xidmətlər göstərmiş Azərbaycan alimlərinin əməyinin qiymətləndirilməsi məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. "AMEA-nın professoru" elmi adı təsis edilsin.
2. "AMEA-nın professoru" elmi adının Əsasnaməsinin hazırlanması məqsədilə aşağıdakı tərkibdə İşçi qrupu yaradılsın:

   Akademik İbrahim Quliyev (sədr);
   Akademik Rasim Əliquliyev;
   Texnika üzrə elmlər doktoru Əminağa Sadıqov;
   Hüquq üzrə fəlsəfə doktoru Rasim Ağasiyev.
3. İşçi qrupa (akademik İbrahim Quliyev) tapşırılsın ki, "AMEA-nın professoru" elmi adının Əsasnaməsini hazırlayaraq AMEA-nın Rəyasət Heyətinə təqdim etsin.
4. Qərarın icrasına nəzarət AMEA-nın prezidenti, akademik Akif Əlizadəyə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT